**AZƏRBAYCAN RESPUBLİKASININ**
**BOLQARISTAN RESPUBLIKASINDAKI SƏFİRLİYİ**

AZ/M/144/17.

20 aprel 2017-ci il

**Azərbaycan Respublikası**
**Dövlət Neft Şirkətinin (SOCAR)**
**Prezidenti cənab R.Abdullayevə**

**Hörmətli Rövnəq müəllim,**

Nəzərinizə çatdırırıq ki, Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi ilə əlaqədar Sofiyada ikitərəfli əlaqələrə həsr olunmuş konfransın təşkili məsələsi Səfir Nərgiz Qurbanova tərəfindən Bolqarıstan Respublikasının xarici işlər naziri nəzdindən Bolqarıstan Diplomatiya İnstitutunun direktoru Tanya Mihaylova və Bolqarıstanın Atlantik Klubu qeyri-hökumət təşkilatının prezidenti, sabiq xarici işlər naziri Solomon Passi ilə görüşlər zamanı təklif olunmuş və bu təşəbbüs onlar tərəfindən müsbət qarşılanmışdır.

Nəticədə sözügedən tədbirin cari ilin 15 may tarixində təşkili olunması qərara alınmışdır. "*Bolqarıstan-Azərbaycan: diplomatik münasibətlərin 25 ili. İkitərəfli tərəfdaşlıq və çoxtərəfli əməkdaşlıq üçün perspektivlər*" mövzulu konfrans iki paneldən ibarət olacaq, birinci panel Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli əməkdaşlığa, ikinci panel isə ölkəmiz ilə Avropa İttifaqı arasında münasibətlərə və bu xüsusda Bolqarıstanın töhfəsinə həsr olunacaqdır. Konfransın ilkin proqramı əlavə olunur.

Bu tədbirə iştirakçı qismində Bolqarıstan Respublikasının dövlət qurumlarının, elmi dairələrin və qeyri-hökumət təşkilatlarının, həmçinin Bolqarıstanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin dəvət olunması və Azərbaycan ilə Bolqarıstan arasında əməkdaşlığın inkişaf etdirilməsi üzrə fikir mübadiləsinin aparılması nəzərdə tutulur.

Konfransda Azərbaycandan məruzəçi kimi nazir müavini Mahmud Məmməd-Quliyevin, Milli Məclisin üzvü və Azərbaycan-Bolqarıstan parlamentlərarası dostluq qrupunun sədri Rauf Əliyev və "SOCAR Balkan" şirkətinin baş icraçı direktoru Murad Heydərovun çıxış etməsini təklif edirik.

Nəzərdən keçirilməsini və razılığınız olacağı təqdirdə, "SOCAR Balkan" şirkətinin baş icraçı direktoru Murad Heydərovun sözügedən konfransda iştirak etməsi üçün Bolqarıstana ezam olunması məsələsinə baxılmasını xahiş edirik.

Qoşma: 2 s.

**Hörmətlə,**

**Səfir** **Nərgiz Qurbanova**

Çarlz Darvin küçəsi 6, Sofiya şəhəri 1113, tel:(+359) 2 8170070, faks: (+359) 2 8170077, e-poçt: sofia@mission.mfa.gov.az, internet səhifəsi: sofia.mfa.gov.az